**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**Hacızadə Mahmud Elşən oğlu**

# İNFORMASİYA İQTİSADİYYATI VƏ ONUN AZƏRBAYCANDA İNKİŞAF MEYİLLƏRİ

**5312.01 "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**Bakı - 2017**

Dissertasiya işi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor<br>**Rəsul Ənvər oğlu Balayev** |
| **Rəsmi opponentlər:** | AMEA-nın müxbir üzvü, i.e.d., prof.<br>**Qorxmaz Cahangir oğlu İmanov**<br><br>iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Habil Hüseyn oğlu Aslanov** |
| **Aparıcı təşkilat**: | **Azərbaycan Texniki Universitetinin Sənaye iqtisadiyyatı və menecment kafedrası** |

Müdafiə "__" "______" 2017-ci il saat ______ Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən, iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.018 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır:

AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "__" "_______" 2017-ci ildə göndərilmişdir.

**FD.02.018 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.ü.f.d.** **H.S. Şamilova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** İnformasiya iqtisadiyyatının təşəkkülünün səciyyəvi cəhətlərini və onun Azərbaycanda mövcud vəziyyəti və inkişaf meyillərinin elmi aspektdən xarakterizə olunması mühüm əhəmiyyət kəsb edir. Bu, hər şeydən əvvəl ondan irəli gəlir ki, informasiya iqtisadiyyatı istehsalatın yeni texnoloji üsulu kimi qloballaşmanın genişlənən axınından güc alaraq sürətlə həyatımızın bütün sahələrinə nüfuz edir. O, həmçinin cəmiyyətin inkişafının müasir iqtisadi sistemi olaraq yeni iqtisadi münasibətlər formalaşdırır, ayrı-ayrı ölkələrin və bütövlükdə dünya iqtisadiyyatının inkişafına təkan verir. İnformasiya iqtisadiyyatı həm də aparıcı elmi tədqiqat sahələrindən biri kimi, daim təkmilləşir və inkişaf edir. Gənclik çağlarını yaşamasına baxmayaraq, informasiya iqtisadiyyatının elmi bazası xeyli genişlənmiş, təcrübi sferasında mühüm nailiyyətlər əldə olunmuş və bir sıra ölkələrdə o, əsaslı surətdə təşəkkül taparaq milli iqtisadiyyatın aparıcı sahəsinə çevrilmişdir. Azərbaycan Respublikasında da informasiya iqtisadiyyatının özəyini təşkil edən informasiya texnologiyaları prioritet sahə elan edilmiş, bu istiqamətdə çoxsaylı dövlət proqramları, strategiyalar, mühüm işçi sənədlər qəbul olunaraq həyata keçirilmiş və hazırda da icra olunmaqdadır. Yeni innovativ iqtisadiyyat quruculuğuna təkan verən, ölkə ÜDM-nin iki dəfə artırılmasını nəzərdə tutan "Azərbaycan-2020 Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının, həmçinin realaşdırılmasına başlanılan "Milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin əsas hədəfləri sırasında da İKT sektoruna mühüm yer verilmişdir. Bundan irəli gələrək, nəzəri və təcrübi ümumiləşdirmələr aparmaqla, Azərbaycanda informasiya iqtisadiyyatının təşəkkülü, mövcud vəziyyəti və potensial imkanlarının qloballaşma çağırışları baxımından təhlili və qiymətləndirilməsi, informasiya cəmiyyəti quruculuğu istiqamətində yeni sosial-iqtisadi keyfiyyətlərin aşkarlanması və inkişaf perspektivlərinin müəyyən olunması elmi aktuallıq kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi:** informasiya nəzəriyyəsinə əsaslanan informasiya iqtisadiyyatı sahəsində dünya və həm də milli elmi sferada mühüm tədqiqatlar yerinə yetirilmiş və sahənin konseptual bazası xeyli zənginləşdirilmişdir. İnformasiya anlayışına yanaşma və onun məzmununun açılışı görkəmli dünya alimlərindən R.Hartli, K.Şennon, N.Viner, R.Fişer, U.Eşbinin, M.Mazur, A.Turen, A.Xarkeviç, Y.Şreyder və başqalarının tədqiqatlarında geniş əksini tapmışdır. İnformasiyanın iqtisadi kateqoriya kimi xüsusiyyətlərinin, habelə informasiya iqtisadiyyatının və

informasiya cəmiyyətinin ümum metodoloji məsələlərinin tədqiqinə isə tanınmış elm xadimləri D.Bell, E.Toffler, P.Draker, C.Clark, Y.Masuda, C.Helbreqt, F.Maxlup, U.Rostou, R.Aron, M.Porat, K.Errou, C.Stiqler, M.Kastels, U.Tadao, S.Kuznets, T.Stouner, V.İnozemsev, B.Korneyçuk, R.Nijiqorodsev, O.Koçak, T.Yazıcı, E.Həsənov, Q.Qromov, A.Ursul, L.Xromov və başqaları mühüm töhfələr vermişlər. İnformasiya iqtisadiyyatı, informasiya cəmiyyəti, Elmi-Texniki Tərəqqini müəyyən edən sahələr, innovasiyalar və ümumilikdə milli iqtisadiyyat üzrə konseptual məsələlərlə bağlı tədqiqatlar azərbaycanlı alimlər Q.İmanov, Ş.Səmədzadə, C.Babayev, A.Musayev, M.Tağıyev, A.Mirzəcanzadə, C.Allahverdiyev, T.Əliyev, Z.Səmədzadə, R.Əliquliyev, S.Kərimov, F.Qasımov, V.Novruzov, R.Balayev, B.Ataşov, Y.Həsənli, M.Atakişiyev, V.Vəliyev, E.Hacızadə, A.Mustafayev, A.Məhərrəmov, H.Rüstəmbəyov, Ə.Muradov, R.İşkəndərov, Y.Kəlbiyev, P.Hüseynova, M.Məmmədova, H.Aslanov, G.İsmayılov və digərlərinin əsərlərində öz əksini tapmışdır.

Bunlarla yanaşı vurğulanmalıdır ki, informasiya iqtisadiyyatı fenomeninin keyfiyyət xarakteristikasının əsaslandırılması tam başa çatdırılmamış, əməyin yaradıcı funksionallığına rəğmən informasiya cəmiyyəti quruculuğu prosesində insan kapitalının istehsalçı rolu və onun investisiyalaşdırılması məsələləri az öyrənilmiş və ümumilikdə müvafiq istiqamətdə bir sıra nəzəri-metodoloji məsələlər hələ də diskussiya predmeti olaraq qalmaqdadır. Elmi-təcrübi materialların araşdırılması göstərir ki, müasir qloballaşma çağırışları, inteqrasiya prosesləri və təkmilləşən bazar münasibətləri şəraitində Azərbaycanda informasiya iqtisadiyyatının inkişaf meyilləri ilə bağlı əlahiddə kompleks tədqiqatlar az öyrənilən məsələlər sırasında qalmaqdadır və burada da bır sıra spesifik meyarların müəyyən olunması, davamlı inkişafı təmin edən müvafiq təhlil və qiymətləndirmələrin aparılması vacib şərtidir. Bütün bunlar isə yeni müvafiq dəqiqləşdirmələrin və əsaslandırmaların aparılmasını zəruri edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində nəzəri və təcrübi tədqiqat ümumiləşdirmələri aparmaqla yeni təyinatlı istehsal üsulu kimi informasiya iqtisadiyyatının yaranış amillərinin, qloballaşma çağırışları baxımından cəmiyyətin informasiya potensialı və alt sistemlərinin dəyərləndirilməsi, onun Azərbaycanda mövcud vəziyyəti, fərqləndirici cəhətləri və inkişaf meyillərinin səciyyəvi xüsusiyyətlərinin təhlili və qiymətləndirilməsi, habelə milli iqtisadiyyatın modernizasiyası baxımından informasiya iqtisadiyyatının strateji planlar əsasında inkişafı və idarəedilməsi üzrə konseptual təkmilləşmələrin hazırlanması məqsəd olaraq qarşıya qoyulur.

Məqsədə nailolma aşağıdakı kompleks vəzifələrin həlli ilə təmin edilir:

- ❖ müasir iqtisadi münasibətlər sferasında informasiyanın aparıcı rolunun artması ilə bağlı informasiya nəzəriyyəsi və onun metodoloji əsasları üzrə yeni tədqiqat işləmələrinin yerinə yetirilməsi;
- ❖ iqtisadi sistemlərin təkamülü və ictimai istehsalın inkişafının müasir qanunauyğun pilləsi kimi formalaşan informasiya iqtisadiyyatının yaranış amillərinin təhlili üzrə yeni ümumiləşdirmələrin aparılması;
- ❖ informasiya iqtisadiyyatının struktur və infrastrukturu, göstəricilər sistemi və iqtisadi artıma təsir effektinin təhlili;
- ❖ qloballaşma və informasiya iqtisadiyyatının qarşılıqlı əlaqəliyinin təhlili və bu sahədə mövcud metodoloji yanaşmaların sistemləşdirilməsi;
- ❖ bazar iqtisadiyyatı sisteminin inkişaf etdiyi ölkələrdə informasiya iqtisadiyyatı strategiyalarının təhlili və yeni müvafiq milli modelin formalaşdırılmasında onların üstün müqabil cəhətlərindən istifadə imkanlarının dəyərləndirilməsi;
- ❖ Azərbaycanda informasiya iqtisadiyyatının təşəkkülü, inkişaf mərhələləri, fərqləndirici cəhətləri və mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi;
- ❖ milli iqtisadiyyatın inkişafının strateji hədəflərinin qlobal çağırışlar və yeni konseptual təkmilləşdirmələr sferasında dəyərləndirilməsi, bu inkişafın davamlılığının təmin edilməsində İKT və yüksək texnologiyalar sektorlarının genişləndirilməsi və şaxələndirilməsinin rolu və əhəmiyyətinin əsaslandırılması;
- ❖ milli İKT sektorunun əsas iqtisadi göstəriciləri və infrastruktur kompleksinin vəziyyətinin təhlili əsasında iqtisadi artıma təsirinin qiymətləndirilməsi və 2025-ci il üzrə onun inkişaf modelinin hazırlanması;
- ❖ milli iqtisadiyyatın modernizasiyası baxımından informasiya iqtisadiyyatı, həmçinin ümumilikdə informasiya cəmiyyəti quruculuğunun mühüm perspektiv istiqamətlərinin müəyyən edilməsi və onların inkişafının daha uzun müddətləri əhatə edən strateji planlar əsasında irəliləməsi üzrə konseptual təkmilləşdirilmələrlə bağlı təkliflərin hazırlanması.

**Tədqiqatın obyekti** olaraq ölkə iqtisadiyyatının modernizasiyasında mühüm alət - yüksək texnologiyalar və bu istiqamətdə istehsal və xidməti həyata keçirən təsərrüfat subyektləri, həmçinin qlobal meyillərin və dəyişikliklərin inkişafı şəraitində informasiya iqtisadiyyatının formalaşması və funksionallığı çıxış edir.

**Tədqiqatın predmetini** informasiya iqtisadiyyatı quruculuğu prosesinə yeni xarakterik element və baza amilləri ilə təsir göstərən iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın nəzəri əsasını** iqtisad elmi klassiklərinin, filosof və sosioloqların informasiya cəmiyyəti və informasiya iqtisadiyyatının inkişaf problemləri üzrə fundamental tədqiqat əsərlərində təqdim olunmuş konsepsiyaları, sahə üzrə dünyanın aparıcı institut və təşkilatlarının elmi-metodik materialları, müvafiq elmi-informatik ədəbiyyat və məlumatları, həmçinin tədqiqat predmeti üzrə Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq normativ-hüquqi aktları ehtiva edir.

**Tədqiqatın metodoloji əsasını** bazar iqtisadiyyatı nəzəriyyəsinin əsas müddəaları təməlində aparıcı alim və mütəxəssislərin elmi əsərlərində öz əksini tapmış informasiya iqtisadiyyatının qanunayğunluqlarının və inkişaf xüsusiyyətlərinin öyrənilməsinə dialektik yanaşma təşkil edir. Tədqiqat prosesi sistemli yanaşmada elmi məntiqi, funksional, retrospektiv, deduktiv metodlar, müşahidə üsulu, ekspert qiymətləndirilməsi, komparativ təhlil, statistik qruplaşdırma, sxemləşdirmə, qrafik təsvir və digər iqtisadi təhlil alətləri və mexanizmlərindən istifadə olunmaqla kompüter texnikası və müasir proqram təminatı vasitələrinin köməyi ilə aparılmışdır.

**Tədqiqatın informasiya bazası** "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (*2003-2012-ci illər*)", "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiya" (*2014-2020-ci illər*), Azərbaycan Respublikasının rabitə, informasiya texnologiyalarının, kosmik sənayenin inkişafı üzrə müvafiq dövlət proqramları, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri", Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar və İqtisadiyyat nazirliklərinin, Dövlət Statistika Komitəsinin ölkənin informasiya texnologiyaları və yüksək texnologiyaların potensialını səciyyələndirən rəsmi məlumatlarına, aidiyyəti təsərrüfat subyektlərinin hesabatlarına, informasiya iqtisadiyyatı və informasiya cəmiyyətinin inkişafı üzrə beynəlxalq təsisatların dövrü nəşrlərinə, statistik toplular və mühüm elmi ədəbiyyatlara, İnternet şəbəkəsinin müvafiq vebsaytlarının informasiyalarına, habelə müəllifə məxsus hesablama və təhlil materiallarına əsaslanır. İşdə mənbəyi göstərilməyən cədvəl və şəkillər orijinal səciyyə daşıyaraq statistik və dövri mətbuat materiallarına istinadən müəllif tərəfindən işlənmişdir.

**Tədqiqatın elmi yeniliyi** informasiya iqtisadiyyatının quruculuğuna təkan verən baza amillərinin nəzəri əsaslandırılması, metodiki tətbiqi və habelə Azərbaycanda informasiya iqtisadiyyatının inkişaf meyillərini şərtləndirən başlıca istiqamətlər üzrə təkmilləşdirici elmi-tətbiqi işləmələrdən ibarətdir.

Dissertasiya işinin elmi yenilikli nəticələrinə aşağıdakılar aid olunur:

❖ "informasiya" ilə bağlı bir sıra digər anlayışların (*"informasiya resursu", "informasiya məhsulu", "informasiya istehsalı", "informasiya bazarı", "informasiya təhlükəsizliyi" və s.*) iqtisadi münasibətlər sferasında fərqləndirici cəhətləri aşkarlanmış, qruplaşdırılmış, informasiya nəzəriyyəsi və onun metodoloji əsasları üzrə müvafiq tədqiqat işləmələri çevrəsində informasiyanın elmi tərifinin təsviri yeni apsektdə formalaşdırılmışdır;

❖ müxtəlif növ iqtisadi sistemlərə xas məhsuldar qüvvələrin strukturu və onların təkamülü, habelə informasiya iqtisadiyyatında xüsusi istehsal üsulunu şərtləndirən amillər, makro və mikro səviyyədə vəzifələri tədqiq olunaraq yeni ümumiləşdirilmələr aparılmışdır;

❖ dünya iqtisadiyyatının müasir inkişaf reallıqlarına rəğmən informasiya iqtisadiyyatının strukturu və infrastrukturu, göstəricilər sistemi, qlobal indeksləri təhlil olunaraq sistemləşdirilmiş, onun mütərəqqi bazar təsisatlandırmalarının geniş tətbiqi ilə miqyaslı yönləndirildiyi ölkələrdə əlavə iqtisadi artım effektləri yaratdığı əsaslandırılmışdır;

❖ informasiya mübadiləsinin intensivləşdirilməsi ilə irəliləyən texnoloji tərəqqi olmaqla qloballaşmanın informasiya iqtisadiyyatının inkişafına, həmçinin informasiya sahəsinin iqtisadiyyatın qloballaşma prosesinə mühüm təsir göstərməsi əsaslandırılmış, bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə reallaşdırılan müvafiq strategiyaların üstün elementlərinin respublikada yeni milli informasiya iqtisadiyyatı modelinin formalaşdırılmasında istifadə imkanları dəyərləndirilmişdir;

❖ Azərbaycanda informasiya iqtisadiyyatının təşəkkülü, mövcud vəziyyəti, inkişafının fərqləndirici xüsusiyyətlərinin təhlili və statistik qiymətləndirilməsi aparılaraq, milli iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsində İKT sektorunun və yüksək texnologiyalar sənayesinin rəqabətqabiliyyətli əsas hərəkətverici güc olduğu müəyyən edilmiş və bu sahədə istehsalın genişləndirilməsi və şaxələndirilməsinin rolu və əhəmiyyəti əsaslandırılmışdır;

❖ milli İKT sektorunun əsas iqtisadi göstəriciləri və infrastruktur kompleksinin müasir vəziyyətinin təhlili əsasında iqtisadi artıma təsiri qiymətləndirilmiş və kompüter texnologiyalarını köməyi ilə 2025-ci il perspektivi üzrə funksional davamlı inkişaf modeli hazırlanmışdır;

❖ milli iqtisadiyyatın modernizasiyası baxımından informasiya cəmiyyəti quruculuğunun və informasiya iqtisadiyyatının mühüm perspektiv istiqamətləri müəyyən edilmiş və onun inkişafının daha uzun müddətləri əhatə edən innovasiyalı strateji planlar əsasında təmin olunması üzrə konseptual təkmilləşdirilmələrlə bağlı təkliflər hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** onunla bağlanılır ki, dissertasiya işinin əsas səciyyəsi, metodiki yanaşmaları, nəticə və təklifləri informasiya texnologiyaları və yüksək texnologiyalardan səmərəli istifadə üzrə aparılan tədqiqatları zənginləşdirməyə imkan yaradır. Buradakı yeni nəzəri ümumiləşdirmələr həmçinin bir sıra analoji iqtisadi fənlərin, xüsusən də "İnformasiya iqtisadiyyatı"nın tədris-metodiki materiallarının işlənməsi və tədrisində istifadə oluna bilər. Dissertasiya işinin materiallarından həmçinin bu sahədə gələcək tədqiqatların aparılması istiqamətində də istifadə edilməsi mümkündür.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, burada əldə edilən elmi-təhlil və ümumiləşdirmələr, irəli sürülən təkliflər ölkədə informasiya iqtisadiyyatının və informasiya cəmiyyətinin inkişafı üzrə strategiyaların hazırlanmasında, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar və İqtisadiyyat nazirliklərinin sahə üzrə idarəetmə və proqnozlaşdırma işinin optimallaşdırılmasında alternativ material kimi istifadə oluna bilər. Tədqiqat nəticələrinin həmçinin İKT və yüksək texnologiyalar sektorlarının rasionallığının artırılmasına, yerinə yetirilən Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsinin, müvafiq dövlət proqramlarının səmərəli icrasına, müvafiq institusional və normativ-hüquqi təkmilləşdirmələrə, ölkənin qeyri-neft sektorunun tutumunun genişləndirilməsinə və bütövlükdə iqtisadiyyatın tərəqqisi və modernizasiyasına töhfə verəcəyi də gözlənilir.

**Tədqiqat işinin aprobasiyası və nəticələrinin tətbiqi.** Dissertasiya işinin əsas nəzəri səciyyələri və nəticələri ayrı-ayrı elmi-praktiki konfranslarda, dəyirmi masalarda məruzə olunmuş və bununla bağlı müxtəlif elmi nəşrlərdə, 4-ü xaricdə olmaqla, ümumilikdə 13 məqalə dərc edilmişdir. Tədqiqatın nəticələri həmçinin yazılı məruzə şəklində "R.İ.S.K." elmi-istehsalat şirkətinə və Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinə təqdim olunmuş, müvafiq aprobasiyadan keçərək müəyyən təkliflərin tətbiqi haqqında arayışlar (*"R.İ.S.K." elmi istehsalat şirkəti 27.10.2016. 20161027,01, Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi 27.10.2016. 011,9-189*) alınmışdır.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya 189 səhifədə şərh olunmaqla giriş, 3 fəsil, nəticə və təkliflər, həmçinin 141 adda ədəbiyyat siyahısından ibarətdir. İşdə 23 cədvəl, 19 şəkil o cümlədən, 6 diaqram, 7 sxem və 1 qrafik əksini tapmış, strukturu və məntiqi dissertasiyanın mündəricatı, tədqiqatın predmeti və məqsədi ilə uzlaşdırılmışdır.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin ***girişində*** mövzunun aktuallığı, tədqiqatın məqsədi və vəzifələri, predmeti, problemin öyrənilmə vəziyyəti, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, işin aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiyanın "***İnformasiya iqtisadiyyatının tədqiqinin nəzəri metodoloji əsasları***" adlanan I fəslində müasir iqtisadi münasibətlər sferasında informasiyanın aparıcı rolu, iqtisadi sistemlərin təkamülü, informasiya iqtisadiyyatı konsepsiyası, strukturu və infrastrukturu, göstəricilər sistemi üzrə sistemli təhlili şərhlər verilmiş, informasiya nəzəriyyəsini zənginləşdirən müvafiq ümumiləşdirmələr aparılmış, informasiya iqtisadiyyatının genişləndirilməsinin iqtisadi artıma təsir effekti ilə bağlı yeni qiymətləndirmə və əsaslandırmalar yerinə yetirilmişdir.

İnformasiya nəzəriyyəsi və müasir iqtisadi münasibətlər sferasında informasiyanın aparıcı rolu üzrə yerinə yetirilən tədqiqatlardan belə bir nəticə hasil olunmuşdur ki, informasiya əksər elmlərin araşdırma predmetidir və bu baxımdan da ayrı-ayrı müstəvilərdə onun müxtəlif məna yükü daşıyan çoxlu təriflərinə rast gəlinir. Bununla belə, onun hamı tərəfindən qəbul edilən ümumi tərifi təsbit edilməmiş qalır və həmçinin iqtisad elmində "informasiya" və onunla bağlı bir sıra digər anlayışlar da demək olar ki, yetərincə öyrənilməmişdir. Bütün bunları nəzərə alaraq tədqiqat ümumiləşdirməsi ilə daha lakonik məzmunda informasiyanın saxlanması, ötürülməsi, emalı, işlənməsi və insan fəaliyyətində istifadəsi üzrə lazım olan məlumatların məcmusu kimi tərifi formalaşdırılmışdır.

İnformasiya iqtisadiyyatının məzmun və mahiyyətinin dolğun təhlili, ondan öncə gələn iqtisadi sistemlərin məzmun və mahiyyətini, struktur özəlliklərinin analitik qavranılmasını şərtləndirir. Belə ki, müxtəlif nəzəriyyələr və həmçinin gerçək praktika da iqtisadiyyatın sistemli xarakter daşıdığını daim təsdiqləyir. Yaşadığımız zamanda iqtisadi sistemlər içərisində əmtəə istehsalından xidmətlər istehsalına keçidi bərqərar edən yeni - postindustrial cəmiyyət tipi daha sürətli inkişaf taparaq sərhədlərini genişləndirir. Elmi işlərin iqtisadiyyatın hərəkətverici qüvvəsinə, biliklərin istehsal resursuna çevrildiyi, insanın təhsili, peşəkarlığı və kreativliyinin daha üstün keyfiyyət olaraq dəyərləndirildiyi bu cəmiyyətdə informasiya iqtisadiyyatı bütün sahəvi iqtisadiyyatları əhatəsinə alır və bütövlükdə metaiqtisadiyyat kimi çıxış edir. O, industrial iqtisadiyyatın bazası əsasında təşəkkül tapsa da, bir sıra təyinatlarda fərqli cəhətlərə də malikdir. Məhsulun maya dəyərində ayrıca informasiya adlı xərc komponenti ilə

təmsil olunması və həm də istehlak olunan ictimai rifahın mühüm bazar mexanizmi elementi qismində iqtisadi fəaliyyətin ayrıca növü kimi çıxış etməsi bu fərqliliyin leytmotivini təşkil edir.

Müasir reallıqlar informasiya cəmiyyətinin bərqərarlıq meyarı kimi əhalinin 50%-i və ondan çoxunun informasiya xidmətləri sahəsində məşğulluğunu və cəmiyyətin informasiyalaşdırılma dövrünün azı 60 il olmasını şərtləndirir.

İnformasiya iqtisadiyyatı məxsusi sistem formatına malikdir. Bu qarşılıqlı fasiləsiz və əks-fasiləsiz sahibkarlıq fəaliyyəti funksiyalarının həyata keçirildiyi təsərrüfat sistemidir. Buna görə də, informasiya iqtisadiyyatı ayrıca bir iqtisadi sektor olaraq ÜDM-in əsas tərkib hissəsi kimi çıxış edir. Praktikada və statistik uçotda bu sektor əsas son məhsulu informasiya ilə bağlı olan elmi biliklər, informasiya, onların hərəkətinin mütəşəkkil prosesi kimi sahələri özündə birləşdirir.

Aparılan təhlillə bir daha müəyyən olunur ki, müasir informasiya iqtisadiyyatının strukturu mürəkkəb və çoxşaxəlidir və o, həmçinin müvafiq kibernetikanın prinsiplərinə əsaslanan infrastruktura da malikdir. Onun inkişafı kəmiyyət və keyfiyyət, strukturun balanslaşdırılması, effektivliyi kimi müxtəlif göstərici və parametrlərin bütöv bir dəsti ilə qiymətləndirilir. Bu qiymətləndirmənin mükəmməlliyinin artırılması üçün müxtəlif indikatorlar işlənib hazırlanmışdır ki, bu sırada informasiya iqtisadiyyatının qlobal indeksi və reytinq göstəricisi İKT-nin inkişafı indeksinin xüsusi yeri vardır.

İnformasiya iqtisadiyyatının inkişafının iqtisadi artıma mühüm təsir effekti vardır. O, ayrı-ayrı ölkələrin və ümumilikdə dünya iqtisadiyyatının inkişafına da öz töhfələrini verir. Məhz bu baxımdan da inkişafı davamlı hədəf seçən ölkələrdə informasiya iqtisadiyyatına, onun genişləndirilməsinə tərəqqinin, iqtisadi artımın yeni qaynaq nöqtələri olaraq yanaşılır.

Dissertasiyanın "***Qloballaşma şəraitində informasiya iqtisadiyyatının inkişafının əsas amilləri***" adlanan II fəsli qloballaşma və informasiya iqtisadiyyatının qarşılıqlı əlaqəliyinin qiymətləndirilməsinə, bazar iqtisadiyyatı sisteminin inkişaf etdiyi ölkələrdə informasiya iqtisadiyyatı strategiyalarının səciyyəvi xüsusiyyətlərinin öyrənilməsinə, onların üstün cəhətlərinin Azərbaycanda tətbiqi imkanlarının müəyyənləşdirilməsinə və habelə Azərbaycanda informasiya iqtisadiyyatının özünün təşəkkülü və mövcud vəziyyətinin təhlili məsələlərinə həsr edilmişdir.

Qloballaşma informasiya iqtisadiyyatının inkişafına, digər tərəfdən isə informasiya sahəsinin iqtisadiyyatın qloballaşması prosesinə mühüm təsiri vardır. Bu qarşılıqlı təsir istehsalın maddi nemətlərdən asılılığının, sahə

üzrə tranzaksiya məsrəflərinin azalması, xidmətlərin diversifikasiyası və miqyasının artması, əmək bölgüsünun dərinləşməsi, İKT sektorunda yeni sahələrin, informasiya toplanması, emalı, istifadəsi və həmçinin bunlarla bağlı ənənəvi peşə və ixtisasların radikal modifikasiyası əsasında yeni peşələrin yaranması, kosmik məkandan istifadədə informasiyanın ötürülməsi imkanlarının yüksəlməsi və s. istiqamətlərdə özünü göstərir.

Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə informasiya iqtisadiyyatı strategiyaları və onların səciyyəvi cəhətləri üzrə aparılan təhlillərin nəticəsi olaraq qeyd edilməlidir ki, bu tip ölkələrdə elmi bilik və ixtisaslı kadrlar beynəlxalq rəqabət qabiliyyətinin əsasını təşkil edir. Bundan irəli gələrək həmin ölkələrdə müvafiq istiqamətlər üzrə məxsusi strategiyalar hazırlanır, institusional təsisatlandırmalar genişləndirilir, normativ-hüquqi baza ardıcıl təkmilləşdirilir və başlıca olaraq da intellektual potensialın inkişafına yönələn qanunlar qəbul edilir. Hazırda ABŞ, Yaponiya, AFR, Fransa, Böyük Britaniya və bir çox digər aparıcı bazar iqtisadiyyatı ölkələrində əlavə dəyərin 75%-ni təmin edən informasiya sahəsinə sosial-iqtisadi inkişafın mühüm strateji istiqaməti kimi xüsusi diqqət yetirilir:




**Şəkil 1. İnformasiya texnologiyalarının ölkələr üzrə dünya ÜDM-ində payı**

Əlbəttə Azərbaycanı bu göstərici üzrə həmin ölkələrlə müqayisə etmək çətindir. Burada ölkələrin ərazisi, əhali sayı və makroiqtisadi göstəriciləri həmin fərqin yaranmasında müəyyən rola malikdirlər. Bütün bunlara baxmayaraq informasiya iqtisadiyyatı sahəsində aparıcı ölkələrin təcrübəsindən bəhrələnməklə Azərbaycanda da müvafiq biçimli və məhsuldar strategiya formalaşdırılmalı və reallaşdırılmalıdır. Bu zaman ABŞ, Yaponiya və Avropa İttifaqının üstün cəhətləri olaraq ÜDM-də xidmət sferasının payının yüksəldilməsi, əlavə dəyərin yaradılması və məşğulluğun təminatında informasiya texnologiyaları, elektron sənaye,

informasiya xidmətləri sektorunda yeni iş yerlərinin açılması, müvafiq istiqamətdə elmi tədqiqatların davamlı stimullaşdırılması kimi keyfiyyətlərə meyil edilməlidir. Bundan başqa İsrail, Cənubi Koreya, Avstraliya kimi ölkələrdə olduğu kimi, yüksək texnologiyaların istehsalı sahələri, insan kapitalının inkişafı, softlaşma işləri proqramlı investisiyalaşdırılmalıdır. Məqbul Çin və Hindistan təcrübəsi kimi isə İnternetin, elektron kommersiyanın davamlı inkişaf etdirilməsi, İKT bazarına rəqabətədavamlı məhsulların çıxarılması, informasiya sənayesində autsorsinq sisteminin genişləndirilməsi, offşor proqramlaşdırma kimi strateji istiqamətlər əsas götürülməlidir.

Azərbaycanda informasiya iqtisadiyyatının təşəkkülü və mövcud vəziyyətinin təhlili üzrə tədqiqatlar göstərir ki, ölkədə aparılan məqsədyönlü dövlət siyasəti nəticəsində İnformasiya və rabitə sektorlarında hər üç ildə 2 dəfə artım baş vermişdir. Burada orta illik artım tempi son 8-10 ildə 20-25% təşkil etmişdir ki, həmin göstərici üzrə Azərbaycan ümumdünya inkişaf tempini 2-3 dəfə qabaqlayır.




| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| informasiya və rabitə sektorunun gəlirləri (mln. manat) | 480,8 | 590 | 723,1 | 950,6 | 1081,9 | 1179,6 | 1272,9 | 1439,7 | 1528,1 | 1623,6 | 1642,8 |

**Şəkil 2. Azərbaycan Respublikasının 2005-2015-ci illərdə informasiya və rabitə sektorlarında gəlirlər**

Sahələrin davamlı investisiyalaşdırılması nəticəsində 2025-ci ildə Azərbaycanda yalnız İKT sektorundan əldə olunan gəlirlərin neft sektorundan gələn gəlirlərə bərabər olması və növbəti illərdə isə bu gəlirləri də üstələyəcəyi gözlənilir. İşlərin rəvan gedişində qarşıdakı 10-12 il ərzində İKT sektorunun ÜDM-dəki xüsusi çəkisinin daha da artaraq hətta 10%-i keçəcəyi proqnozlaşdırılır. Bunun üçün müvafiq illər ərzində davamlı investisiyalaşmanı (*təqribi hesablamalara görə 10 milyard ABŞ dollarından çox*) stimullaşdırmaqla İKT sektoru bir neçə dəfə genişlənməli

və sahədən əldə edilən gəlirlər ən azı 12-15 milyard ABŞ dollarına qədər yüksəlməlidir. Belə olan təqdirdə istehsal sahəsinin İKT strukturunda 9,6%-lik payının həmin dövrdə 25-30%-ə yüksəlməsi gözlənilir. Bütün bunları yetərli təmin etmək üçün isə iqtisadiyyatın digər sektorlarda da İKT-nin tətbiqi ilə bağlı adekvat layihələrin həyata keçirilməsi genişləndirilməli, müvafiq sahəvi infrastruktur daha da təkmilləşdirilməli, telekommunikasiya, xüsusən də genişzolaqlı İnternet inkişaf etdirilməlidir. Bu, həm də onunla əsaslandırılır ki, İKT hazırlığı ilə rəqabətqabiliyyətlilik səviyyəsi arasında sıx bağlılıq mövcuddur. Belə ki, İT uzunmüddətli perspektivdə iqtisadiyyatın effektivliyini yüksəldir, genişzolaqlı rabitəyə yönələn 10%-lik investisiya artımları müvafiq qiymətləndirmələrdə ÜDM-i 0,6-0,7% tempdə artırır. Bu məqsədlərə nail olmaq üçün İKT sektorunda ixrac yönümlü istehsalın stimullaşdırılması, vergi güzəştlərinin tətbiqi və gömrük rüsumlarının optimallaşdırılması, reinvestisiya imkanları ilə fərqlənən fiberoptik infrastrukturun inkişafı və digər bu kimi məsələlərin həlli də diqqətdən yayınmamalıdır. Bununla belə, yeni hədəflərə yetişmək üçün yüksək texnologiyalarının inkişafını sürətləndirməklə innovasiya iqtisadiyyatına əsaslı keçid də təmin olunmalıdır.

Dissertasiyanın "***Azərbaycanda informasiya cəmiyyəti quruculuğu və informasiya iqtisadiyyatının inkişaf perspektivləri***" adlanan III fəslində davamlı inkişafın təmin edilməsində İKT sektorunun rolu, onun iqtisadi irəliləyişlərə təsiri, informasiya cəmiyyəti quruculuğunun və informasiya iqtisadiyyatının tərəqqisinin əsas istiqamətləri və strateji hədəfləri üzrə müvafiq təhlil və qiymətləndirmələr aparılmış, milli iqtisadiyyatın informasiya texnologiyaları və yüksək texnologiyalar əsasında modernizasiyası ilə bağlı müvafiq təkliflər irəli sürülmüşdür.

Araşdırmalar göstərir ki, müasir iqtisadiyyatın bütün sektorlarında olduğu kimi, İKT sektorunun da inkişafında İnternet mühüm rol oynayır. Bu istiqamətdə bir sıra aparıcı dünya ölkələrində əldə edilən mühüm irəliləyişləri nəzərə alaraq Azərbaycanda da informasiya iqtisadiyyatının inkişafı prosesində İnternetin genişləndirilməsi, Wi-Fi infrastrukturunun bütün respublikanı əhatə etməsinin təminatı vacibdir. Eyni zamanda ölkə konstitusiyasında da İnternetlə bağlı müddəalar salınmalı, onun pulsuz istifadəsinin bir vətəndaşlıq haqqı alması kimi hüquqlar təsbitini tapmalıdır.

İKT sektorunda inkişaf həm də qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi deməkdir. Həmin inkişafa davamlı dinamizm verməklə qeyri-neft sektorunun ÜDM-də 2015-ci ildə olan 70%-lik xüsusi çəkisinin hər il İKT sektorundakı sürətli artımlarla 2020-2025-ci illərdə 80%-ə yüksəldilməsi təmin oluna bilər. Bunun üçün İKT sahəsində sahibkarlığın

inkişafına maliyyə dəstəyi artırılmalı, investisiyalaşdırma genişləndirilməli, elmi-tədqiqat işlərinin, yeni texnologiyaların iqtisadiyyata inteqrasiyası gücləndirilməli, sahəvi innovativ biznes inkişaf etdirilməli və həm də bütün bu istiqamətlərdə əlverişliliklə nanotexnologiyalardan istifadə olunmalıdır.

Statistik tədqiqatlar göstərir ki, İKT-nin 10% artımı iqtisadiyyatın 1% inkişafına təkan verir. Azərbaycanda isə bu sahədəki inkişaf templəri daha uğurlu hesab olunur. Azərbaycanın İKT sektorunda irəliləyişlərə dinamizm vermək üçün burada son 10 il - 2005-2015-ci illər ərzində formalaşmış vəziyyəti, həmçinin inkişafda şərt və nəticələrin oxşar və fərqliliklərinin geniş xarakterizə edilməsi və müvafiq kompleks təhlilin aparılması zəruridir. Bunun üçün ilk əvvəl ölkədə İKT sektorunun məhsul buraxılışı və xidmətlər strukturuna baxılması gərəklidir.

Ölkə statistikası üzrə metodoloji yanaşmada İKT sektoru informasiya və məlumatların elektron formada saxlanılması, ötürülməsi və göstərilməsini əhatə edən istehsal və xidmət sahələrini özündə birləşdirir. Buraya isə hazırda konkret olaraq 33 adda məhsul daxil edilir. Həmin məhsullar üzrə müvafiq dövrdə tərəfimizdən ümumiləşdirilmiş cədvəl hazırlanmışdır:

**Cədvəl 1**

**İKT sektorunda qruplar üzrə məhsul və xidmətlər**

| **İKT sektoru üzrə fəaliyyət növləri** | **Ölçü vahidi** | **İllər** | | | |
|---|---|---|---|---|---|
| | | **2005** | **2010** | **2014**[1] | **2015** |
| **İstehsal** | *milyon manat* | 4,7 | 27,2 | 35,5 | 24,2 |
| *Xüsusi çəkisi* | *%* | *1,02* | *2,37* | *2,25* | *1,52* |
| **Satış** | *milyon manat* | 3,1 | 6,8 | 25,3 | 27,7 |
| *Xüsusi çəkisi* | *%* | *0,68* | *0,59* | *1,60* | *1,74* |
| **Rabitə** | *milyon manat* | 440,3 | 1065,4 | 1381,3 | 1379,4 |
| *Xüsusi çəkisi* | *%* | *95,34* | *92,95* | *87,56* | *86,80* |
| **Proqram təminatı** | *milyon manat* | 0,5 | 7,6 | 27,2 | 35,0 |
| *Xüsusi çəkisi* | *%* | *0,11* | *0,66* | *1,72* | *2,20* |
| **Digər** | *milyon manat* | 13,2 | 39,2 | 108,2 | 122,9 |
| *Xüsusi çəkisi* | *%* | *2,85* | *3,42* | *6,87* | *7,74* |
| **Cəmi** | *milyon manat* | **461,8** | **1146,2** | **1577,5** | **1589,2** |

[1] 2015-ci ildə Ukrayna böhranı ilə əlaqədar hadisələr çərçivəsində ABŞ və Aİ ölkələri tərifindən Rusiyaya sanksiyasların tətbiqi dolayısı ilə dünya bazarında neftin qiymətinin aşağı düşməsi ilə müşaiyət olunmuş və bu vəziyyət Azərbaycana da təsirsiz ötüşməmişdir. Nəticədə bu və ya digər hadisələr fonunda ölkədə iqtisadi inkişaf prosesləri bir qədər səngirmişdir. Buna görə də, aparılan təhlildə istinad ili 2015-ci illə yanaşı 2014-cü il də alternativ olaraq nəzərdə tutulmuşdur.

Cədvəl 1-dəki vəziyyətə daxili seqmentlər baxımından komparativ təhlil metodikasi ilə yanaşdıqda görərik ki, həmin seqmentlər üzrə dinamik dəyişikliklər daha çox istehsal və rabitə sferaları ilə bağlıdır. Bütün bunlara rəğmən 2005-2015-ci illərin mövcud reallıqları əsasında növbəti 10 il - 2020-2025-ci illər üzrə İKT sektorunun inkişaf modeli qurula bilər.

Öncə vurğulanmalıdır ki, “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası qəbul edildikdən sonra Azərbaycan iqtisadiyyatında istehsalın İKT-dəki 2013-ci il üzrə 9,54%-lik payının 2020-ci ildə 25%-dək yüksəldilməsi, onun ÜDM-dəki (*illik 6-6,5% orta illik artım tempi ilə ÜDM-in özünün həcminin 100 milyard manata çatdırılması*) payının isə 2,5%-dən 10%-ə (*4 dəfə artım*) çatacağı gözləntiləri ilə bağlı proqnozlar səslənməkdə idi. Bunun üçün İKT-nin illik artımını təxminən 18-20% ətrafında saxlamaqla, hədəf götürülən ildə sektorun gəlirlərini 9,3 milyard manata və ya o zamanki valyuta kursu ilə 8-9 milyard ABŞ dollarına çatdırılması planlaşdırılırdı. Həmin konsepsiyada bir sıra adekvat inkişaf məqamları nəzərdə tutulmuşdur. Lakin məlum dünya neft qiymətləri böhranı ilə bağlı vəziyyət qismən dəyişmiş və burada da müvafiq olaraq yeni və daha real əsaslandırma tələbi yaranmışdır. Bundan irəli gələrək Cədvəl 1-in məlumatları əsasında “Microsoft Excel 2013” kompüter proqramında “Xətti trend” funksiyasının köməyi ilə hər bir sahə üzrə adekvatlıq əmsalını müəyyən etməklə, növbəti illər üzrə öncə iki (*dayanaqlı inkişaf və proqressiv inkişaf*), sonra isə ümumiləşdirilmiş optimal variantda proqnoz göstəricilər müəyyən edilmişdir.

**Cədvəl 2**

**İKT sektorunun perspektiv inkişaf göstəriciləri**

*(milyon manat)*

| İKT sektorunda | İllər | | | | | | Adek-vatlıq əmsalı |
|---|---|---|---|---|---|---|---|
| | **2005** | **2010** | **2014** | **2015** | **2020** | **2025** | |
| Məhsul buraxılışı | **461,7** | **1146,2** | **1577,5** | **1589,4** | **2193,1** | **3000,4** | 0,9912 |
| Əlavə dəyər | 320,5 | 715,8 | 963,3 | 970,7 | 1319,2 | 1644,3 | 0,9969 |
| Əsas kapitala investisiyalar | 150,1 | 204,0 | 147,2 | 338,4 | 419,1 | 513,3 | 0,9880 |
| İşçilərin sayı (*min nəfər)* | 17,3 | 18,3 | 19,9 | 20,1 | 21,4 | 22,6 | 0,9946 |

Cədvəl 2-nin hesablanmış məlumatlarında görünür ki, 2025-ci ildə 3 milyard manat həcminə yüksəldilə bilən İKT sektoru 2018-ci ildən başlayaraq hər il 400-500 milyon manat investisiya mənimsəyərək, 1,65

milyard manat əlavə dəyər yaradacaqdır. Bu zaman hesablamalara görə yeni iş yerləri ilə sektorda məşğulluğun səviyyəsi 23 min nəfəri ötəcək, burada çalışan işçilərin iqtisadiyyatın bütün sahələri üzrə muzdlu işçilərin siyahı sayına nisbəti də artaraq hazırkı 1,3%-dən 2,0%-ə yüksələcəkdir.

Vurğulandığı kimi, ölkədə İKT sektorunun inkişafının yaxın perspektivdə təminatı əhəmiyyətli dərəcədə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın səmərəliliklə reallaşması ilə bağlıdır. Bu strategiyada nəzərdə tutulan tədbirlərin səmərəli reallaşdırılması nəticəsində ölkədə rəqabətədavamlı İKT və həmçinin də yüksək texnologiyalar sənayesinin formalaşması da təmin ediləcəkdir.

Araşdırmaların yekunu olaraq İKT sektorunun 2025-ci ili əhatə edən perspektiv dövr üçün iqtisadi inkişafa təsiri qiymətləndirilmişdir:

**Cədvəl 3**

**İKT sektorunda inkişafın ÜDM-təsiri**

| **İllər** | **ÜDM və İKT** | **Cəmi** | | **1 $ = Manat** |
|---|---|---|---|---|
| | | **Milyon ₼** | **Milyon $** | |
| **2005** | ÜDM | 12522,5 | 13238,7 | 0,9459 |
| | ***İKT sektoru*** | ***461,8*** | ***488,2*** | |
| **2010** | ÜDM | 42465,0 | 52909,3 | 0,8026 |
| | ***İKT sektoru*** | ***1146,2*** | ***1428,1*** | |
| **2014** | ÜDM | 59014,1 | 75234,7 | 0,7844 |
| | ***İKT sektoru*** | ***1577,5*** | ***2011,1*** | |
| **2015** | ÜDM | 54352,1 | 52969,5 | 1,0261 |
| | ***İKT sektoru*** | ***1589,2*** | ***1548,8*** | |
| **2020** | ÜDM | 78276,1 | 48922,6 | 1,6000 |
| | ***İKT sektoru*** | ***2193,1*** | ***1370,7*** | |
| **2025** | ÜDM | 99190,9 | 61994,3 | 1,6000 |
| | ***İKT sektoru*** | ***3000,4*** | ***1875,25*** | |

Cədvəl 3-dən göründüyü kimi, 2025-ci ildə ölkə ÜDM-nin 100 milyard manata (*ÜDM-in hesablanmasında Şahdəniz-2 layıhəsinin reallaşması ilə əlaqədar sıçrayışlı artımlar nəzərdə tutulmamışdır*) yüksəlməsi proqnozunda İKT sektorunda 3 milyard manatlıq məhsul və xidmətlər buraxılışına nail olunacaqdır ki, bu da həmin sektorun 2015-ci ildəki müvafiq çəkisini təxminən 2 dəfə artırılması ilə 3%-ə çatdıracaqdır.

Aparılan təhlillər bir daha göstərir ki, Azərbaycanın İKT sektoru orta və uzunmüddətli perspektivdə özünün yüksək tempini saxlamağa qadirdir. O, həmçinin sürətlənən dinamikliyi ilə biznesin və dövlət idarəetməsinin inkişafına təkan verəcək, həyat keyfiyyətini artıraraq insanların və onların kommunikativliyinin sosiallaşmasının yeni formalarını təzahür etdirəcəkdir. İKT sektoru yüksək texnologiyalar sektoru ilə birlikdə milli iqtisadiyyatın inkişafının yeni başlıca strateji hədəflərinə çevriləcəkdir.

Yuxarıda qeyd olunanlar ölkənin İKT sektorunda davamlı inkişafının təmin olunmasında vacib şərtlər kimi çıxış edirlər. Bütün bu və ya digər müvafiq hədəflərə əsaslı nail olma bütövlükdə ölkə iqtisadiyyatının modernləşdirilməsinin katalizatoru kimi İT-dən geniş istifadə əsasında müvafiq strategiyanın da hazırlanmasını şərtləndirir. Belə strategiyanın hazırlanmasında müvafiq dünya təcrübəsinə əsaslanan bir neçə ssenari nəzərdən keçirilə bilər. Əsas olaraq isə burda baza ssenarisi ilə gücləndirilmiş sintezli inkişaf istiqaməti seçilə bilər. Baza ssenarisi cari tendensiyaların ətalətli davam etdirilməsinə əsaslanır və sahəyə dəstək mövcud proqramlar çərçivəsində İT sferasının spesifikasını nəzərə almadan və kompleks əlaqələndirilmə aparmadan həyata keçirilir. Gücləndirilmiş ssenari isə müəssisələrin geniş informasiyalaşdırılmasını və iqtisadiyyatın inkişafı fonunda sahənin sistemli dövlət dəstəyini nəzərdə tutur.

Azərbaycanda informasiya cəmiyyəti quruculuğunun və informasiya iqtisadiyyatının inkişafının əsas istiqamətləri üzrə aparılan təhlilin nəticəsi olaraq bir daha əsaslandırılır ki, respublikanın gələcək inkişafı, ölkədə davamlı iqtisadi artıma nail olunma məhz İKT və yüksək texnologiyalar sektorlarındakı irəliləyişlərlə təmin ediləcəkdir.

## Nəticə və təkliflər

İnformasiyanın siyasi, iqtisadi, texniki, kimyəvi, bioloji və s. bu kimi istehlak məqsədli xassələri, istehsal resursları sistemində müstəqil element kimi çıxış edərək istehsal xarakterliliyə malik olması, texnologiyalar və idarəetmənin təkmilləşdirilməsi əsasında bütövlükdə istehsal prosesinə təsir etmə xüsusiyyətliliyi təhlil edilmiş və bu istiqamətdə müvafiq ümumiləşdirmələr aparılmışdır.

Müasir dünya iqtisadiyyatının inkişaf reallıqlarından irəli gələrək informasiya iqtisadiyyatının strukturu və infrastrukturu, göstəricilər sistemi, qlobal indeksləri təhlil olunaraq sistemləşdirilmiş, mütərəqqi bazar institutlarının geniş yayıldığı ölkələrdə onun əlavə iqtisadi artım effektləri yaratdığı əsaslandırılmışdır.

Aparılan təhlillərlə əsaslandırılmışdır ki, İnternetdən pulsuz istifadənin konstitusiya hüququ kimi möhkələndirilməsinə ehtiyac vardır. Bundan başqa Wi-Fi infrastrukturunun bütün ölkəni əhatə etməsinin təminatı vacibdir. İKT sahəsində sahibkarlığın inkişafına maliyyə dəstəyinin gücləndirilməsi, yerli və xarici investisiyaların cəlb edilməsi, yeni texnologiyaların iqtisadiyyata fasiləsiz inteqrasiyası təmin olunmalı və bu istiqamətdə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun rolu daha da artırılmalıdır. Bunlarla yanaşı müvafiq istiqamətdə yüksək texnologiyalar parkının fəaliyyətinin genişləndirilməsi əsasında resurs mərkəzlərinin yaradılması, kiçik və orta innovativ biznesin inkişafı, istehsal və ixrac imkanlarının artırılması, ölkəyə xarici şirkətlərin və investisiyaların cəlb edilməsi və İKT üzrə mütəxəssislərin hazırlanması kimi vacib layihələrin həyata keçirilməsi funksiyaları üzrə fəaliyyətlər də gücləndirilməlidir.

İKT sektorunun ölkədə iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi ilə bağlı yerinə yetirilən təhlil əsasında müvafiq ümumiləşdirmə aparılaraq onun 2025-ci il üzrə sxematik olan müvafiq funksional davamlı inkişaf modeli təqdim olunur:




**Şəkil 3: Milli İKT sektorunun 2025-ci il perspektivi üzrə İnkişaf Modeli**

İKT iqtisadiyyatın, cəmiyyətin və hökumətin əsas mexanizmidir. Aparılan təhlil və qiymətləndirmələr göstərir ki, respublikada informasiya iqtisadiyyatının davamlı inkişafının təmin olunmasının ən vacib

məqamlardan biri informatizasiyanı artırmaqla, ölkənin innovasiyalı təyinatda sənaye iqtisadiyyatı xətti ilə inkişaf etdirilməsidir. Ümumilikdə informasiya iqtisadiyyatının inkişafı ilə bağlı aparılan siyasət kompleks xarakter daşımalı, bu istiqamətdə iqtisadi, hüquqi, institusional və təşkilati tədbirlərin həyata keçirilməsi üçün daha əlverişli mühit formalaşdırılmalıdır.

Azərbaycanda informasiya cəmiyyəti quruculuğunun və informasiya iqtisadiyyatının inkişafı üzrə aparılan təhlillərlə ümumi kontekstdə bir daha əsaslandırılır ki, İKT sektoru davamlı olaraq yaxın onilliklərdə ölkə iqtisadiyyatının inkişafının yeni strateji prioriteti kimi hədəflənəcəkdir. Respublikada informasiya iqtisadiyyatının inkişafının metatrendini yeni texnosferaya - biliklər iqtisadiyyatına əsaslı keçid təşkil edəcəkdir. Bu strategiyanın hərtərəfli həyata keçirilməsi üçün isə təklif olaraq aşağıdakıları ayırmaq mümkündür:

❒ aparıcı ölkələrin mütərəqqi təcrübəsini, yaradıcı potensialın və həmçinin Azərbaycanda həyata keçirilən müvafiq "milli strategiyanın" hədəflərini ehtiva edən yeni informasiya cəmiyyəti modelinin formalaşdırılması;

❒ cəmiyyətin informasiyalaşdırılmasının sürətləndirilməsi, dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərini optimallaşdıran "ASAN xidmət" və "Elektron hökumət" təsisatlarının genişləndirilməsi və təkmilləşdirilməsi;

❒ İnternet şəbəkəsinin mükəmməlliyinin artırılması, 2020-ci ilədək çıxış sayının maksimal, qoşulma sürətinin qlobal göstəricidən üstün səviyyəyə qaldırılması, DATA mərkəzlərinin potensialının yüksəldilməsi, mobil rabitədə 4G tətbiqinin artırılması; telekommunikasiyaların aparıcı mexanizm kimi rolunun artırılması;

❒ orbitə çıxarılan peyklərin köməyi ilə ölkənin daha etibarlı rabitə ilə təmin edilməsi ilə informasiya təhlükəsizliyinin gücləndirilməsi, yüksək texnoloji məhsulların istehsal və ixracının genişləndirilməsi, nüvə texnologiyalarının müasir tələblərə uyğun inkişafının təmin olunması, nanotexnoloji industriyanın formalaşdırılması, robot sənayesinin, additiv texnologiyalar istehsalına keçidinin təmin edilməsi;

❒ sosiallaşma və sosial qarşılıqlı fəaliyyətin yeni formalarının yaradılması, ətraf mühitin mühafizəsi üçün İKT-nin tətbiqinin genişləndirilməsi, onun imkanları məhdud olan insanların həyat keyfiyyətinin əhəmiyyətli amilinə çevrilməsi, səhiyyədə inteqrasiya olunmuş sistemlərin və fərdiləşmiş səhiyyə üçün texnologiyaların inkişafı;

❒ qərarların qəbulu və hadisələrin identifikasiyası üzrə proqramların

inkişafı, yeni maşın təhsil sistemlərinin, açıq məlumatların saxlanma məkanları, bilik və informasiyanın vizuallaşmasının səmərəli formalarının yaradılması;

❒ böyük sistem və modellərin idarəetmə proseslərinin, adaptiv kollektiv davranış qabiliyyətli intellektual avtomatlaşdırılan sistemlərin və bulud texnologiyalarına əsaslanan Veb-tətbiqlərin məlumatlarının işlənilməsi hipermiqyaslı mərkəzlərinin yaradılması, yeni paradiqmalar əsasında kompüter infrastrukturlarının qorunması, sensor şəbəkələrin yayılması, İKT-nin geniş tətbiqi ilə enerji qənaətinə innovasiya yanaşmalarının inkişafı, "E-science" konsepsiyalarının reallaşdırılması;

❒ sosial-iqtisadi hadisələri, sistem və obyektləri qabaqcadan müəyyən edən və proqnostik modelləşdirən, material və proseslərin resurstutumluluğunu azaldan vasitələrin inkişafı, layihələndirmənin dəyərinin və müddətinin radikal azalması, metamodellərdən istifadə nəticəsində məhsulun keyfiyyətinin artırılması;

❒ əmtəə və xidmətlərin irəliləyişində sosial şəbəkələrin rolunun gücləndirilməsi, elektron ticarətin və elektron kommersiyanın inkişafı, müxtəlif məzmunlu onlayn kitabxanalar və aqreqasiya bazarının artımı, müəlliflərin özləri tərəfindən istehsal edilən və yayılan kontentin populyarlığının və gəlirlərinin artması.

❒ İKT üzrə ölkənin qlobal texnoloji rəqabətqabiliyyətliliyinin və onunla bağlı institusional şəraitin davamlılığının təmin edilməsi, əqli mülkiyyətin qorunması sahəsində dövlət institutlarının işinin təkmilləşdirilməsi, İT sferasında fundamental tədqiqatların genişləndirilməsi, İKT, yüksək texnologiyalar və nanotexnologiyaları əhatə edən dövlət proqramlarının, İKT və İnternetlə bağlı qanunun qəbulu, Konstitusiyada İnternet və Wi-Fi şəbəkəsindən pulsuz istifadəni nəzərdə tutan maddənin əksini, Vençur fondunun təsisi, nanoməkanını və bütünlüklə yüksək texnologiyalar sektorunu koordinasiya edən mərkəzi tənzimləyici dövlət qurumunun yaradılması;

İnformasiya iqtisadiyyatı və onun Azərbaycanda inkişaf meyilləri üzrə aparılan təhlilin nəticəsi olaraq bir daha əsaslandırılır ki, ölkədə davamlı iqtisadi artıma nail olunma genişliklə məhz İKT və yüksək texnologiyalar sektorlarındakı irəliləyişlərlə təmin ediləcəkdir. Burada Azərbaycanın zəngin təbii sərvətləri, texniki-iqtisadi, kommunikativ potensialı, insan kapitalı bənzərsiz güc toplumu təşkil edir. Həmin potensialı və bütün resursları daha aktiv dövriyyəyə gətirərək dayanıqlı inkişaf konsepsiyası zəminində inkişafın yeni strategiyalarının formalaşdırılması və səmərəli şəkildə reallaşdırılması zəruridir.

**Dissertasiyanın elmi nəticələrinə dair aşağıdakı elmi əsərlər çap olunmuşdur:**

1.M.E.Hacızadə. Informasiya-kommunikasiya texnologiyaları və "Azərbaycan 2020" hədəfləri. Ünummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş iqtisadiyyat üzrə magistrantların beynəlxalq Bakı forumunun məruzələri. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı: "İqtisad universiteti". 2013. 0,8 ç.v.

2.M.E.Hacızadə, H.A.İsrafilov. Elektron ticarətin beynəlxalq hüquqi tənzimlənməsi aspektləri. 2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransının tezisləri. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı: 2014. 0,6 ç.v.

3.M.E.Hacızadə. Dövlət xidmətlərinin təqdimatının avtomatlaşdırılması. Təfəkkür elmi xəbərlər jurnalı. Elm və Təhsil mərkəzi Təfəkkür Universiteti. Bakı: №5. 2014. 0,6 ç.v.

4.M.E.Hacızadə. E-government and its features in Azerbaijan *(E-hökumət və onun Azərbaycandakı xüsusiyyətləri).* Collection of scientific articles. "Scientific enquiry in the contemporary world: theoretical basics and innovative approach". Issue 3, Volume 2. San Francisco, California, USA, B&M Publishing: Research and Publishing Center "Colloquium" - 2014. 0,6 p. [*Elmi məqalələr toplusu. "Müasir innovativ cəmiyyətin iqtisadi maraqlarının təminatının praktiki və nəzəri problemləri". Buraxılış 2, ABŞ Kaliforniya, San Fransisko: B&M Publishing "Kollokium" Elmi-nəşriyyat mərkəzi. 2014. 0,6 ç.v.*].

5.M.E.Hacızadə. İnformasiya iqtisadiyyatı cəmiyyət inkişafının yeni iqtisadi sistemi kimi (*Информационная экономика как новая экономическая система в развитии общества*) AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası. Bakı: №1. 2015. 0,8 ç.v.

6.M.E.Hacızadə. İnformasiya iqtisadiyyatının yaranış aspektləri və inkişaf xüsusiyyətləri (*Аспекты возникновения информационной экономики и особенности ее развития*). Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri. Bakı: №3 (*aprel-iyun*), 2015. 0,6 ç.v.

7.M.E.Hacızadə. Особенности формирование информационной экономики и ее перспективы развития в Азербайджане. (*Informasiya iqtisadiyyatının formalaşması xüsusiyyətləri və onun Azərbaycanda inkişaf perspektivləri*). Международный научный журнал "Актуальные проблемы экономики, социологии и права". Россия, Ставропольский край, г. Пятигорск № 2. 2015. 0,9 п.л. [*İqtisadiyyatın, sosiologiyanın və*

*hüququn aktual problemləri. Beynəlxalq elmi jurnal. Rüsiya. Stavropol diyarı, Pyatiqorsk: № 2. 2015*, 0,9 ç.v.].

8.M.E.Hacızadə. Informasiya cəmiyyətinin formalaşması amilləri və qloballaşma şəraitində onun Azərbaycanda inkişaf meyilləri. İnformasiya Cəmiyyəti Problemləri. AMEA İnformasiya Texnologiyaları İnstitutu. Bakı: №2. 2015. 1,0 ç.v.

9.M.E.Hacızadə. Факторы формирования информационного общества и тенденции его развития в Азербайджане (*Informasiya cəmiyyətinin formalaşması amilləri və onun Azərbaycanda inkişaf meyilləri*). Журнал Экономика и предпринимательство. М.: №8, 2015. 0,9 п.л. [*"İqtisadiyyat və sahibkarlıq" jurnal. Rusiya. Moskva: № 8. 2015*, 0,9 ç.v.].

10.M.E.Hacızadə. Müasir iqtisadi münasibətlər sferasında informasiyanın aparıcı rolu. Təfəkkür elmi xəbərlər jurnalı. Elm və Təhsil mərkəzi Təfəkkür Universiteti. Bakı: № 2 (11) 2016. 0,8 ç.v.

11.M.E.Hacızadə. Factors of information society formation and development trends in Azerbaijan (*İnformasiya cəmiyyətinin yaranış amillər və Azərbaycanda bu istiqam ətdə gedən inkişaf meyilləri*). İnformasiya Cəmiyyəti Problemləri elmi-praktiki jurnalının veb saytı. 2016. 0,8 ç.v.

12.M.E.Hacızadə. Перспективы развития отраслей ИКТ и высоких технологий в Азербайджане (*Azərbaycanda İKT və yüksək texnologiyalar sektorlarının istiqamətləri*). "Економика & Держава" Научно-практический журнал. Украина. Киев: № 6 (*Июль*) 2016. 0,7 п.л. [*Beynəlxalq elmi-praktiki jurnal. Ukrayna. Kiev: № 6 (Июль) 2016, 0,7 ç.v.*].

13.M.E.Hacızadə. Azərbaycanda informasiya iqtisadiyyatı quruculuğu: tarixi aspekt, mövcud vəziyyət və inkişaf meyilləri. Azərbaycanın vergi jurnalı. Bakı: № 4. 2016. 1,8 ç.v.

**Гаджизаде Махмуд Эльшан оглы**

## РЕЗЮМЕ

## Информационная экономика и тенденции ее развития в Азербайджане

Диссертационная работа посвящена исследованиям информационной экономики и тенденциям ее развития в Азербайджане. Исходя из этого, в работе с точки зрения вызовов глобализации оценены информационный потенциал и подсистемы общества, факторы создания информационной экономики, проведена оценка и анализ характерных ее особенностей и отличительных черт, ее нынешнее положение в Азербайджане, а также поставлена цель подготовки концептуальных совершенствований развития информационной экономики на основе стратегических планов с точки зрения модернизации национальной экономики.

Диссертация излагается на 189 страницах, включая введение, 3 главы, результаты и предложения, а также 141 наименований списка литературы.

В первой главе анализируются теоретические и методологические основы исследований информационной экономики, во второй главе - основные факторы развития информационной экономики в условиях глобализации, а в третьей главе - перспективы развития информационной экономики и формирования информационного общества в Азербайджане.

Научная новизна результатов исследования состоит из теоретических обоснований базовых факторов, которые придают импульс формированию информационной экономики, методического применения, а также из научно-прикладных разработок по усовершенствованию главных направлений, обусловливающих тенденции развития информационной экономики в Азербайджане. Здесь проводимым анализом и оценками обосновывается важность перехода в новую техносферу, как метатренд развития информационной экономики в Азербайджане - в экономику знаний и выдвигаются конкретные предложения о важных структурных компонентах стратегии, которая будет подготавливаться с этой целью.

Исследовательская работа также имеет теоретическое и практическое значение. Результаты диссертационной работы создают возможности для концентрации существующих исследований по применению информационных и высоких технологий, а также преподаванию ряда аналогичных предметов и проведению дальнейших исследований в этой сфере.

С практической точки зрения ожидается, что результаты исследования внесут вклад в подготовку стратегий по развитию информационного общества и информационной экономики, управлению и оптимизации работ прогнозирования проводимых министерством Транспорта, Связи и Высоких Технологий и министерством Экономики Азербайджанской Республики, эффективной реализации соответствующих государственных программ, институциональным и нормативно-правовым усовершенствованиям, расширению объема ненефтяного сектора и, в целом, в модернизацию и прогресс национальной экономики.

**Hajizadeh Mahmud Elshan oğlı**

## ABSTRACT

## Information economy and its development trends in Azerbaijan

The dissertation is devoted to the study of the information economy and its development trends in Azerbaijan. On this basis, in terms of the challenges of globalization estimated information potential and subsystems of society, the factors creating a information economy, an assessment and analysis of the characteristics of its original features, its current situation in Azerbaijan, as well as in terms of modernization of the national economy set a target Improvement of preparation of the conceptual development of the information economy on the basis of strategic plans.

The dissertation is presented on 189 pages, including the introduction, 3 chapters, findings and suggestions, and also 141 titles of literature list.

The first chapter analyzes the theoretical methodological foundations of research information economy, in the second chapter - the main factors of development of the information economy in the context of globalization, and in the third chapter - the prospects for the development of the information economy and the information society in Azerbaijan.

Scientific novelty of the research consists of theoretical justifications underlying factors that give impetus to construction of the information economy, methodical application, as well as of scientific and applied research to improve key areas that determine trends in the development of the information economy in Azerbaijan. It carried out an analysis and assessments, the importance of the transition to a new technosphere as metatrend development of the information economy in Azerbaijan - in the knowledge economy and put forward concrete proposals for major structural components of the strategy, which will be prepared for this purpose.

Research work also has the theoretical and practical significance. The results of the thesis create opportunities for the concentration of existing studies on the use of information and high technologies, as well as the teaching of a number of similar objects, and further research in this area.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Гаджизаде Махмуд Эльшан оглы**

# ИНФОРМАЦИОННАЯ ЭКОНОМИКА И ТЕНДЕНЦИИ ЕЕ РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ

**5312.01 – «Отраслевая экономика»**

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по экономике

**Баку - 2017**